# Yaşayış massivlərində yanğınların baş vermə səbəbləri: potensial təhlükələr və onları aradan qaldırma yolları

***Bu gün müstəqil Azərbaycanımızı böyük inşaat meydanına bənzətmək olar. Ölkə iqtisadiyyatının sürətli inkişafı şəhər və rayonlarımızın, qəsəbə və kəndlərimizin mənzərəsini gündən-günə dəyişir, yeni tikililər, xüsusən də təzə salınan yaşayış massivləri əhaliyə daha firavan həyat bəxş edir.***

Təbii ki, istər müasir dövrdə tikilən və istərsə də köhnə evlərdə sakinlər qazdan və elektrik enerjisindən istifadə etməklə öz məişət problemlərini həll edirlər. Deməli olar ki, hər bir ailədə cürbəcür məqsədlər üçün müxtəlif kimyəvi maddələrdən, tezalışan mayelərdən istifadə olunur. Bütün bunlar isə mənzillərdə yanğın təhlükəsizliyinə ciddi əməl olunmasını tələb edir. Hər bir vətəndaş bilməlidir ki, evlərdə yanğın təhlükəsizliyi qaydalarının pozulması, qaz və elektrik cihazlarından düzgün istifadə olunmaması, uşaqların odla oynamasına etinasız münasibət insan itkisi, külli miqdarda maddi ziyanlarla nəticələnən böyük yanğınlara səbəb olur.

Aparılan araşdırmalar göstərir ki, yaşayış yerlərində baş verən yanğınların əsas səbəbi od ilə ehtiyatsız davranmaqdır. Bəzən ilk baxışdan narahatçılıq doğurmayan, tez-tez müşahidə etdiyimiz və ciddi diqqət yetirmədiyimiz adi hallar belə iri yanğınlar törədir. Xüsusilə çardaqlarda, ot və s. yem bitkilərinin saxlandığı anbarlarda, yaşayış yerlərindəki yardımçı təsərrüfat binalarında siqaret çəkmək, işıqlandırma məqsədilə oddan açıq halda ehtiyatsız istifadə etmək böyük yanğınların baş verməsinə şərait yaradır.

Siqaret çəkilərkən etinasız davranışlar xüsusilə təhlükəlidir. Unutmamalıyıq ki, siqareti alışdırarkən kibriti və ya siqaretin qalığını yanayana hara gəldi atmaq, yaxud taxta üstünə, hətta od ilə azacıq təmasda alışa bilən şeylərin yaxınlığına qoymaq böyük yanğınlar törədir.

Bütün bunlar bir daha təsdiqləyir ki, söndürülməyib tullanan siqaret kötüyündən əmələ gələn yanğınlar ehtimal ediləndən daha təhlükəlidir. Eyni zamanda uzanmış halda, xüsusən sərxoş olanda uzanıb papiros çəkmək çox təhlükəlidir.

Evlərdə qızdırıcı sobalardan istifadə edərkən yanğın təhlükəsizliyinə xüsusilə ciddi diqqət yetirmək lazımdır. Odun sobalarından istifadə edərkən soba bacalarına tez-tez nəzarət edilməli, onlar hər qış mövsümündə təmizlənməlidir. Sobalar yanmayan bir əşya üzərində yerləşdirilməli və ya onunla soba arasına yanmayan bir qoruyucu yerləşdirilməlidir. Pərdə, masa, taxta, parça əşyalar sobadan 60 sm uzaqda olmalıdır.

Sobanın istifadə edildiyi yer yaxşıca havalandırılmalıdır.

Daşınan elektrik sobalarından istifadə zamanı yatarkən soba elektrik şəbəkəsindən ayrılmalıdır. Sobalardan yalnız yerdə istifadə edilməlidir. Yanar maddələr sobadan ən azı 60 sm aralıda olmalıdır. Elektrik sobalarından paltar qurutmaq məqsədi ilə istifadə edilməməlidir.

Evlərdə istifadə olunan mətbəx sobalarının üzərində alovlanan maddələr yerləşdirilməməlidir. Uşaqların diqqətini çəkən şüşə əşyalar ocaq və soba yaxınlığında qoyulmamalıdır. Yemək bişirən zaman soba və ya qızdırıcı cihaz nəzarətsiz qalmamalıdır. Mənzillərdə yanğın adətən mətbəxdə baş verdiyindən, burada olarkən həddən artıq diqqətli olmaq lazımdır. Unutmaq olmaz ki, mətbəxdə və balkonda tezalışan maddə və mayelərin saxlanması qəti qadağandır. Belə ki, yuxarı mərtəbələrdən aşağıya atılan siqaret kötüyü küləklə balkona düşə bilər və orada saxlanılan maddə və mayeləri alışdırar. Mətbəxdə isə küləkdən yellənən pərdələr yanan qaz plitəsinə yaxınlaşdıqda alışa bilər və beləliklə də böyük yanğına səbəb olar. Mətbəx və balkonları lüzumsuz əşyalarla doldurmaq olmaz. Bu xüsusilə tezalışan maddə və mayelərə, eləcə də taxta mebel və şkaflara, ümumiyyətlə, alışa bilən hər bir materiala aiddir. Yadda saxlamaq lazımdır ki, bir çox yanğınlar mətbəxdə isti qazan və tavalardan, onların içərisindəki qaynar yağdan da baş verə bilər.

Evlərdə yanğın hadisələri tonqaldan da baş verə bilər. Yadda saxlamaq lazımdır ki, əgər tonqal yaşayış yerinin yaxınlığında qalanmışsa - bu ciddi yanğın təhlükəsi yaradır. Tonqal qalandıqda küləyin təsirindən havaya qalxan qığılcım zibilin, quru otun, inşaat materialları qalıqlarının yanma ehtimalını artırır, bu isə evlərdə yanğın baş verməsi üçün kifayət edir.

Televizorlardan istifadə edərkən yanğın təhlükəsizliyi qaydalarının pozulması da yanğınlara səbəb ola bilər. Birinci növbədə qeyd etmək lazımdır ki, televizor elektrik cərəyanı ilə işlədiyindən, ona daim nəzarət olunmalıdır.Televizorları istifadə edərkən sabitləşdirici cihazlardan (stabilizatordan) istifadə etmək məqsədəmüvafiqdir. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, televizor və ya digər elektrik cihazlarından yanıq qoxusu gəlirsə və ya tüstü çıxırsa, dərhal televizor və ya cihaz elektrik şəbəkəsindən ayrılmalı və yalnız mütəxəssisin icazəsindən sonra ondan istifadə olunmalıdır.

Qışda kəskin soyuqlar başladığı zaman su kəmərləri və kanalizasiya boruları, mərkəzi qızdırma boru və cihazları, çardaqlarda qoyulan çənlər donur. Yanğın təhlükəsizliyi tədbirlərinə etinasızlıqla baxanlar çox vaxt onları açıq odla qızdırırlar. Bu isə çox vaxt yanğınla nəticələnir. Bu cür boruların donunu açmaq üçün yalnız qaynar su və ya qızdırılmış qum işlədilməlidir.

Uşaqlar tərəfindən od ilə dəcəllik də mənzillərdə yanğınlara səbəb olur. Evdə və ya mənzildə tək qalmış uşaq kibriti götürə bilər, böyüklərin etdiyi kimi, kağız yandırar, qızdırıcı elektrik cihazını şəbəkəyə qoşar, hətta bir vaxt meşədə, bağda və başqa yerlərdə gördüyü kimi, tonqal da yandıra bilər. Böyükləri təqlin edərək bəzən uşaqlar hətta siqaret çəkməyə də təşəbbüs göstərə bilərlər. Bu məsələdə, əlbəttə, müqəssir valideynlərdir, onlar uşaqları mənzildə tək qoyurlar, kibriti onlardan gizlətmir, uşaqların davranışına nəzarət etmir, bəzən də uşaq şıltaqlığına uyub onlara kibritlə oynamağa icazə verir, sobanı yandırmağı, yanmaqda olan məişət cihazlarına nəzarət etməyi balacalara tapşırırlar.

Yadda saxlamaq lazımdır ki, ərazini tikinti materialları və alışqan maddələrlə doldurduqda, işıqlandırmaq üçün açıq alovdan (şam, məşəl) istifadə etdikdə, sobanın üzərində və yanında paltar və ya odun qurutduqda, kustar üsulla düzəldilmiş elektrik avadanlıqlarından və elektrik qızdırıcı cihazlarından istifadə etdikdə, bacaların yaxınlığındakı çardaqlarda tez alışan əşya və məişət qaz balonları saxladıqda, qaz cihazlarında nasazlıq olduqda, siqaret çəkərkən diqqətsizlik etdikdə, uşaqlar odla oynadıqda və s. hallarda real yanğın təhlükəsi yarana bilər.

**Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidmətinin Yanğına qarşı təbliğat şöbəsi.**

# İtmişdir

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 iyun 1998-ci tl tarixli 11 saylı qərarı ilə Bum qəsəbə (keçmiş kənd) sakini **Musayev Müseyib Abusalam oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 634 A nömrəli (kod 40800038) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 10 iyun 1998-ci il tarixli 11 saylı qərarı ilə Böyük Pirəli kənd sakini **Paşayev Xaləddin Əlfəddin oğluna** verilmiş JN seriyalı 201 A nömrəli (kod 40602018) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası ƏMDK Yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Qəbələ Ərazi İdarəsi tərəfindən 09 avqust 2017-ci il tarixdə Zarağan kənd sakini **Mehdiyeva Xatirə Nəsrəddin qızına** verilmiiş RX seriyalı 1120152 nömrəli (reyestr nömrəsi 406013064143 qeydiyyat nömrəsi 1917004928) hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən **çıxarış** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası ƏMDK yanında Daşınmaz Əmlakın Dövlət Reyevstri Xidmətinin Qəbələ Ərazi İdarəsi tərəfindən 09 avqust 2017-ci il tarixdə Zarağan kənd sakini **Mehdiyeva Xatirə Nəsrəddin qızına** verilmiş RX seriyalı 1120151 nömrəli (reyestr nömrəsi 406013064142, qeydiyyat nömrəsi 1917004927) hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən **çıxarış** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası ƏMDK yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Qəbələ Ərazi İdarəsi tərəfindən 09 avqust 2017-ci il tarixdə Zarağan kənd sakini **Mehdiyeva Xatirə Nəsrəddin qızına** verilmiş RX seriyalı 1120130 nömrəli (reyestr nömrəsi 406013064146 qeydiyyat nömrəsi 1917004924) hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən **çıxarış** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası ƏMDK yanındaa Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Qəbələ Ərazi İdarəsi tərəfindən 29 aprel 2014-cü il tarixdə **Bayramov Anar Fazil oğluna** verilmiş RX seriyalı 0375593 nömrəli(reyestr nömrəsi 406013002102, qeydiyyat nömrəsi 4914003117) hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən **çıxarış** itdiyi üçün etibarsız sayılır.

---

Azərbycan Respublikası ƏMDK yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Qəbələ Ərazi İdarəsi tərəfindən 3 iyun 2014-cü il tarixdə **Bayramov Anar Fazil oğluna** verilmiş RX seriyalı 0399367 nömrəli (reyestr nömrəsi 406013015268, qeydiyyat nömrəsi 1914004088) hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən **çıxarış** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası ƏMDK yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməiinin Qəbələ Ərazi İdarəsi tərəfindən 19 iyun 2019-cu il tarixdə **Bayramov Anar Fazil oğluna** verilmiş RX seriyalfı 0432284 nömrəli (reyestr nömrəsi 406013031420, qeydiyyat nömrəsi 1914004569) hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən **çıxarış** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası ƏMDK Yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Qəbələ Ərazi İdarəsi tərəfindən 19 iyun 2014-cü ildə **Bayramov Anar Fazil oğluna** venilmiş RX seriyalı 0432282 nömrəli (reyestr nömrəsi 406013031418 qeydiyyat nömrəsi 1914004567) hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən **çıxarış** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası ƏMDK yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Qəbələ Ərazi İdarəsi tərəfindən 19 iyun 2014-cü il tarixdə **Bayramov Anar Fazil oğluna** venrilmiş RX seriyalı 0432283 nömrəli (reyestr nömrəsi 406013031422 nömrəli, qeydiyyat nömrəsi 1914004571) hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən **çıxarış** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 28 may 1998-ci il tarixli 10 saylı qərarı ilə Tüntül kənd sakini **Eyyubova Arifə Veysəl qızına və ailə üzvlərinə** verilmiş JN seriyalı 236 F nömrəli (kod 40616018) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 1997-ci il 15 dekabr tarixli 27 nömrəli qərarı ilə Soltannuxa kənd sakini **Sədullayev Nüsrət Əsgər oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 286 nömrəli (kod 40602038) **torpağa mülkiyyət hüququna dair Dövlət Aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 28 oktyabr 1998-ci il tarixli 19 saylı qərarı ilə Vəndam qəsəbə (keçmiş kənd) sakini **Abdurahmanov Əjdər Ağalar oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 764 nömrəli (kod 40600048) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 dekabr 1997-ci il tarixli 27 saylı qərarı ilə Soltannuxa kənd sakini **Mustafayev İsmayıl İsrayıl oğluna** verilmiş JN seriyalı 231A nömrəli (kod 40602038) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN!

Qəbələ Rayon Təhsil Şöbəsinin kollektivi Həmzəli kənd tam orta məktəbin müəllimi

**ASLAN İSLAMOVUN**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzinin kollektivi mərkəzin müəllimi **Kərimova Gülər Aslan qızına** atası

**ASLAN MÜƏLLİMİN**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Təbriz Yaqubov adına Bum qəsəbə tam orta məktəbin kollektivi məktəbin direktoru **Məlahət Dadaşovaya, Mübariz** və **Gündüz Dadaşovlara** anaları

**MƏRYƏM XANIMIN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

---

Həmzəli kənd tam orta məktəbin kollektivi iş yoldaşları

**ASLAN MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

# Bilirsinizmi?

*●Ən çox - 468 stansiya sistemindədir. Onları gəzib qurtarmaq üçün 23 saat vaxt lazımdır.*

*●Monqollar idarə edən ilk şimal xalqı olmuşlar.*

*●Kəhrəbadan dərman istehsalında istifadə olunur.*

*●Fransangn simvolu sayılan Eyfel qülləsinin üzərinə 72 nəfər şəxsin adı yazılmışdır.*

*●Manaqua gölü "Mərkəzi Amerikangn ən çirkli gölü" hesab olunur.*

*●Kosovo himninin sözləri yoxdur, yalnız musiqidən ibarətdir.*

*●Xlor Yerin Ozon təbəqəsinin dağılmasında əsas faktorlardan biri sayılır.*

*●"Mersedes" avtomobil markası avstriyalı iş adamı Emil Yellinekin qızı Mersedes Yellinekin şərəfinə adlandırılıb.*

*●Təbiətdə mövsümi hadisələr, onların başlama müddəti və bu müddətləri müəyyən edən səbəblər haqqında biliklər sistemi Fenologiya adlanır.*


Məsul katib Qüdrət Səmədov.

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1340*